## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*
## *ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ*
## *GENERAL PEDAGOGICAL ISSUES*

*UOT: 37.0*

***Kəmalə Rüstəm qızı Quliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-8448-2021*
*https://doi.org/10.69682/azrt.2024.91(3).23-30*

***Nərgiz Oqtay qızı Muxtarlı***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0005-3834-6693*

***Aydan İmruz qızı Şəkixanlı***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://orcid.org/0009-0004-0878-8231*

# TƏLƏBƏLƏRİN MÜƏLLİMLİK PEŞƏSİNƏ DAİR MOTİVASİYA SƏVİYYƏLƏRİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

***Камала Рустам гызы Гулиева***
*доцент кафедры общей педагогики Азербайджанского Государственного Педагогического Университета, доктор философии по педагогике*

***Наргиз Огтай гызы Мухтарлы***
*Азербайджанский Государственный Педагогический Университет*

***Айдан Имруз гызы Шекиханлы***
*Азербайджанский Государственный Педагогический Университет*

# УРОВНИ МОТИВАЦИИ СТУДЕНТОВ К ПЕДАГОГИЧЕСКОЙ ПРОФЕССИИ И ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА НИХ

***Kamala Rustam Guliyeva***
*associate professor of General pedagogy department of Azerbaijan State Pedagogical University, doctor of philosophy in pedagogy*

***Nargiz Oktay Mukhtarli***
*Azerbaijan State Pedagogical University*

***Aydan Imruz Shakikhanli***
*Azerbaijan State Pedagogical University*

# MOTIVATION LEVELS OF STUDENTS FOR THE TEACHING PROFESSION AND FACTORS AFFECTING IT

**Xülasə.** İxtisas seçiminin uğurlu olduğunu əks etdirən əsas göstəricilərdən biri də tələbələrin motivasiyasıdır. Ali təhsil müəssisələrində təhsil alan tələbələrin motivasiya səviyyəsinə müsbət və ya mənfi şəkildə

təsir edən bir çox amillər var. Bu məqalədə müəllimlik ixtisası üzrə oxuyan 106 bakalavr tələbəsinin iştirak etdiyi sorğuda onların peşə motivasiyasına təsir edən faktorlar araşdırılıb. Tələbələrin ixtisas seçimi, karyera, təhsilin keyfiyyəti, müəllimlərin peşəkarlığı haqqında məlumat toplamaq məqsədilə verilən suallar əsasında Azərbaycanda pedaqoji ixtisaslar üzrə bakalavr təhsili alan tələbələrin ixtisas motivasiyası və gələcəklə bağlı planları araşdırılıb. Respondentlərin cavablarına əsasən bu qənaətə gələ bilərik: 1) tədrisin keyfiyyəti; 2) müəssisə imkanları və pedaqoji təcrübənin keyfiyyəti; 3) yerli stereotip və iş tələbləri tələbələrin peşə motivasiyasına ciddi şəkildə təsir göstərir.

***Açar sözlər:*** *müəllim, tələbə, motivasiya, ixtisas seçimi, karyera, təhsilin keyfiyyəti.*

**Резюме.** Одним из основных показателей, отражающих успешность выбора специализации, является мотивация студентов. Существует множество факторов, которые положительно или отрицательно влияют на уровень мотивации студентов, обучающихся в высших учебных заведениях. В данной статье факторы, влияющие на их профессиональную мотивацию, были исследованы в ходе опроса 106 студентов бакалавриата, обучающихся по педагогической специальности. На основе заданных вопросов с целью сбора информации о выборе студентами специальности, карьере, качестве образования и профессионализме преподавателей были исследованы мотивация и планы на будущее студентов, обучающихся в бакалавриате по педагогическим специальностям в Азербайджане. Исходя из ответов респондентов, можно прийти к такому выводу: 1) качество преподавания; 2) предпринимательские возможности и качество педагогического опыта; 3) местные стереотипы и требования к работе серьезно влияют на профессиональную мотивацию студентов.

***Ключевые слова:*** *преподаватель, студент, мотивация, выбор специальности, карьера, качество образования.*

**Summary.** One of the key indicators reflecting the success of the choice of a specialization is students' motivation. Numerous factors influence the motivation levels of students in higher education institutions, either positively or negatively. This article investigates the factors influencing the professional motivation of undergraduate students, focusing on 106 participants majoring in teaching. The study collected data on students' choice of specialization, career aspirations, perceived educational quality, and perceptions of teachers' professionalism through a survey. The aim was to explore the motivation and future plans of students pursuing bachelor's degrees in pedagogical specialties in Azerbaijan. Analysis of the responses revealed that the quality of teaching, opportunities for professional growth, and the perceived quality of pedagogical experiences, along with local stereotypes and job requirements, significantly impact students' professional motivation.

***Keywords:*** *teacher, student, motivation, choice of specialty, career, education quality.*

**Giriş.** Sürətlə inkişaf edən təhsil mənzərəsində müəllimlərin rolu heç vaxt bu qədər mühüm olmamışdır. Onlar təkcə biliyin ötürülməsinə deyil, həm də gələcək nəsillərin şüurunu və xarakterini formalaşdırmaq üçün məsuliyyət daşıyırlar. Bununla belə, müasir dövrün müxtəlif tələbatlarını ödəmək üçün müəllimlərin adekvat şəkildə hazırlanması, inkişaf etdirilməsi və motivasiyalarının artırılması kimi məsələlər mühüm pedaqoji problem kimi qarşıya çıxır.

Təhsil sahəsində çalışan mütəxəssislər təhsilin keyfiyyətinin yüksəldilməsi üçün çoxlu dəyişikliklər və araşdırmalar aparırlar. Bu sahədə kurikulum dəyişiklikləri, proqramların təkmilləşdirilməsi, təhsil mühitinin təşkili kimi təşəbbüslər böyük səylə davam edir. Təhsil mühitinin ən son texnoloji vasitələrlə təchiz olunduğu, ən yaxşı kurikulumun hazırlandığı təhsil sistemində hədəflərə çatmaq üçün kifayət qədər motivasiya olunmayan və lazımi motivasiya səviyyəsində olmayan müəllim varsa, sadaladıqlarımızın heç bir faydası olmayacaq. Buna görə də təhsilin icraçısı olan müəllimlərin yüksək motivasiyalı olmaları vacib amil hesab edilir. Müəllimlərin motivasiyasının aşağı və ya yüksək olması onların gördükləri işin keyfiyyətinə və dolayısı ilə təhsilin keyfiyyətinə təsir edən vəziyyətdir. Bu mənada yaxşı olar ki, onların motivasiyasına təsir edən amillər müəllim hazırlığı prosesindən başlayaraq araşdırılsın.

Motivasiya təhsil sistemində həlledici rol oynayır, tələbələrin öyrənmə təcrübələrini formalaşdırır və onların akademik nəticələrinə təsir göstərir. Motivasiya təlim prosesinə və tələbələrin idrak fəallığına təkan verən, fərdin idrak proseslərinə təsir edən, eyni zamanda şagird və tə-

ləbələrin fəaliyyətini müəyyənləşdirən və buna uyğun qərar qəbul etməyi təmin edən qüvvədir.

Bütün bunları nəzərə alaraq müəllim hazırlığında motivasiya məsələsinə xüsusi yer verilməlidir.

**Ədəbiyyat araşdırması.** Keçmiş Amerika Təhsil Naziri Terrel Bell *"Təhsillə bağlı daim xatırlanmalı olduğumuz üç şey var deyərkən bu məsələni şiddətlə vurğulamışdı. Birincisi motivasiyadır. İkincisi motivasiyadır. Üçüncüsü motivasiyadır... Tələbələrin, müəllimlərin və idarəçilərin motivasiyası məktəb üçün hər şeydir... və bütün təhsil sisteminə təsir göstərir."* (CEP 2017: 2).

Təhsildə əldə olunan səmərəliliyin keyfiyyəti müəllimlərin motivasiya səviyyəsi ilə sıx bağlıdır. Tədqiqatlar motivasiya və nailiyyət arasında güclü müsbət əlaqə olduğunu göstərir. Motivasiyanın artması müəllimlərə və şagirdlərə məktəbdən daha çox zövq almağa imkan verir (Akbaba, 2006: 1).

Təhsilin, xüsusilə müəllim hazırlığının problemlərindən danışarkən ilk növbədə motivasiyanı vurğulamaq lazımdır. Öyrənmə motivasiyası təhsilin keyfiyyətinə bilavasitə təsir etdiyi üçün müasir psixologiya, sosiologiya və pedaqogikada mühüm problem kimi önə çıxır. Motivasiyanın formalaşması və təkamülü adətən məktəb illərində başlayır, belə ki, fərdlər öz fiziki və intellektual qabiliyyətləri haqqında real qavrayışları inkişaf etdirir və bununla da onlar ümumi motivasiya sisteminə və müəyyən dərəcədə öyrənmə motivasiyasına təsir göstərirlər (Məmmədova, 2023).

Tədris üçün müəyyən edilmiş motivasiyanın olmaması təkcə pedaqoqlar üçün deyil, həm də tələbələr və onların valideynləri üçün aktual problemdir. Təhsilə cəlb olunma erkən uşaqlıq dövründən tutmuş ümumi və ali təhsilə qədər fərdin şəxsiyyətinin inkişafının mühüm formalaşma illərini əhatə edir. Nəticə etibarilə, motivasiya problemi pedaqogika və təhsil psixologiyası sahələrində ən vacib məsələ kimi önə çıxır. Motivasiyanı təlim prosesinin sistemli olmasına kömək edən həyati amil kimi qəbul edən F. Sadıqova vurğulayır ki, motivasiyanın olmaması akademik uğurun aşağı düşməsinə səbəb ola bilər (Sadıqova, 2021).

Merle Taimalu, Piret Luik, Ritva Kantelinen və Jari Kukkonen (2021) Finlandiya və Estoniyada müəllimlik ixtisası tələbələrinin peşə seçiminə həvəsləndirən amilləri, o cümlədən müəllimlik peşəsinə dair təsəvvürlərini tədqiqat apararaq müqayisə etmişlər. Nəticə etibarilə, finlandiyalı tələbələrin motivasiya səviyyələrinin eston tələbələrə nisbətdə daha yuxarı olduğu təsbit edilmişdir. Buna səbəb olan əsas amillər isə yüksək əməkhaqqı, sosial status, daha yaxşı ixtisaslaşmadır. Həmçinin nəticələrdən aydın olur ki, eston tələbələr ixtisas seçimində daha çox ailə və cəmiyyətin fikirlərinə məruz qalırlar. Bu peşəni seçmələrinə təsir edən digər bir amil kimi müəllimlik peşəsinin çətin olduğunu bildirmələridir. Eston müəllimlərə nisbətdə finli müəllimlərin əksəriyyəti gənc müəllimlərdir. Buradan aydın olur ki, Finlandiyada tələbələr öz istəkləri ilə bu peşəni seçirlər. Estoniyada müəllimlərin əmək haqqları artırılsa da, bu peşəni seçən tələbələrin sayında nəzərə çarpacaq dəyişiklik özünü göstərməmişdir. Bu da bizə onu deməyə əsas verir ki, xarici motivasiyadan daha çox daxili motivasiyanı artırmaq üçün addımlar atılmalıdır.

M.B. Acat və K. Yenilmez təhsil fakültəsi tələbələrinin müəllimlik peşəsinə dair motivasiya mənbələri və problemlərini araşdırmaq üçün 913 tələbə (511 qız, 402 oğlan) arasında sorğu aparmışlar. Nəticədə təhsil fakültəsinin tələbələri aldıqları təhsil nəticəsində təlim mühitindəki fiziki və sosial dəyişənləri ən mühüm motivasiya mənbəyi kimi qəbul etmişlər; İkincisi, onların öz səriştələri ilə bağlı müsbət motivasiya mənbələrinə malik olduqları, lakin peşənin onlara sosial status və sosial qarşılıqlı əlaqəni təmin etmək mövzusunda kifayət qədər müsbət motivasiya mənbəyi olmadığı görünür. Cins baxımından əldə edilən ən mühüm nəticə, qız tələbələrin kişilərə nisbətən müsbət motivasiya qaynaqlarının daha yüksək səviyyədə olması, kişilərin isə motivasiya problemlərinin daha çox olmasıdır. Bu vəziyyət gender rollarının, müəllim peşəsinin xüsusiyyətlərinin və onların motivasiya ilə əlaqəsinin müəyyənləşdirilməsinin zəruriliyini ortaya qoymuşdur (Acat, Yenilmez, 2004).

E. Dereli və M.B. Acatın tədqiqatının məqsədi məktəbəqədər təhsilin tədrisi şöbəsinin tələbələrinin motivasiya mənbələrini və problemlərini müəyyən etmək, onların motivasiya səviyyələrinin, motivasiya mənbələrinin və

problemlərinin iştirak etdikləri fakültə və kursa görə fərqlənib-fərqlənmədiyini araşdırmaqdır. Tədqiqatda sorğu modelindən istifadə edilmişdir. Araşdırmanın tədqiqat qrupu Səlcuq Universiteti M.E.F. (179) və Təhsil Fakültəsinin Məktəbəqədər Tədris Departamentində təhsil alan 290 tələbədən ibarətdir (111). Tədqiqat nəticəsində məktəbəqədər təhsilin müəllimliyi kafedrasının tələbələrinin ümumilikdə müəllimlik peşəsinə motivasiyasının yüksək olduğu, çox az problem yaşadıqları, lakin təhsil aldıqları fakültədən və kursdan asılı olaraq motivasiya səviyyələri, motivasiya mənbələri və müəllimlik peşəsi ilə bağlı problemlərin fərqli olduğu müşahidə edilmişdir. Belə ki, peşə təhsili verən fakültələrin tələbələrinin təhsil fakültəsi tələbələrinə nisbətdə daha motivasiyalı olduğu aşkarlanmışdır. Buna səbəb isə peşə təhsili verən fakültələrdə dərslərin daha tətbiqi keçməsi ilə əlaqədardır. Kurslara görə fərqliliyə baxıldıqda isə 1 və 2-ci kurslara nisbətən 3 və 4-cü kurslar daha motivasiyalıdırlar. Bu vəziyyət məktəbəqədər təhsilin tədrisi proqramında peşə kurslarının 3-cü və 4-cü kurslarda cəmlənməsi ilə əlaqədardır. Belə ki, 3-cü və 4-cü siniflərdə pedaqoji təcrübə vasitəsilə peşəni daha yaxından tanıyırlar; onların bilik, bacarıq və peşəyə marağı artır, peşəni tanıdıqca qərəzləri dəyişir. Buna görə də tətbiqi dərslərə və pedaqoji təcrübəyə daha çox yer verilməli və keyfiyyəti artırılmalıdır (Dereli, Acat, 2010).

**Tədqiqat metodu.** Tədqiqat alətimiz anket sorğusudur və araşdırmanın aparılması üçün qarışıq metodlardan- kəmiyyət və keyfiyyət metodlarından istifadə edilib. Hər iki metoddan istifadə etməkdə məqsədimiz respondentlərdən konkret məlumatlarla yanaşı, müəllim motivasiyası ilə bağlı düşündüklərini dərindən tədqiq etməkdir. Kəmiyyət sualları daha konkret məlumatların (demoqrafik göstəricilər, tələbələrin ixtisası, cari vəziyyətdən məmnunluq səviyyələri və s.), keyfiyyət sualları isə mövcud olan problemlərin tapılması və həmin problemlərə münasibətlə bağlı fərdi fikirlər toplamaq üçün nəzərdə tutulub.

**Sorğu aləti.** Tədqiqat sorğusu ümumilikdə 18 sualdan ibarətdir. Onlardan ilk ikisi süzgəc xarakteri daşıyır və valid hesab edilməyən cavabların tədqiqatda nəzərə alınmamasına xidmət edir. Qeyd edək ki, suallar birseçimli, çoxseçimli və açıq olmaqla bölünür və onların tərtibində Likert, Linear (reytinq), nominal şkaladan istifadə edilib. Sorğu alətində respondentlərin özünü ətraflı ifadə edə bilməsi üçün açıq suallara yer verilib və kodlaşdırılıb. Tədqiqatın keçirilməsində bütün etik normalar nəzərə alınmış və anonimlik prinsipinə riayət edilmişdir.

**Tapıntılar.** Sorğuda 106 nəfər olmaqla 1, 2, 3 və 4-cü kurs müəllimlik ixtisasında təhsil alan bakalavr tələbələri iştirak etmişdir. Onların 7-si (6.6%) kişi, 99-u (93.3%) isə qadındır. Nəzərə alsaq ki, tədqiqatımızın seçməsi qartopu üsulu ilə müəyyən edilib, gender bərabərsizliyinin kəskin pozulması təsadüfi deyil. Həmçinin pedaqoji ixtisasları ölkəmizdə daha çox qadınların təmsil etməsi də bu bərabərsizliyə təsir edən amillərdəndir. Aşağıdakı qrafikdə tədqiqatdakı tələbələrin kurslar üzrə bölgüsü verilmişdir (Qrafik 1):




**Qrafik 1.** Tələbələrin hər kurs üzrə say bölgüsü

Qrafikə əsasən tələbələrin 36-sı (33.9%) 1-ci kurs, 32-si(30.1%) 2-ci kurs, 28-i (26.4%) 3-cü kurs, 10-u(9.4%) isə 4-cü kursdur. Respondentlər arasında ixtisas olaraq xarici dil müəllimliyi üstünlük təşkil edir ki, onların sayı 62-dir (58.4%). İxtisas sıralamasında *ibtidai sinif (15%), tarix və coğrafiya (8.4%), biologiya (7.5%), fizika(2.8%), riyaziyyat(0.9%), məktəbəqədər (1.8%), dil və ədəbiyyat müəllimləri (1.8%)* də yer alıb.

**İxtisas seçimi.** Tələbələrin pedaqoji ixtisaslara olan münasibətini öyrənmək və peşə seçimlərinə təsir edən amillərə aydınlıq gətirmək məqsədilə açıq və qapalı suallar ünvanlamışıq. Onların 83.9%-nin bu ixtisası öz istəyi ilə seçməsi müsbət bir haldır. İxtisasa öz istəyi ilə daxil olan 89 tələbənin 75.2%-i (67 nəfər) gələcəkdə müəllim olmağı planlaşdırır, 13 nəfər karyerası ilə bağlı mənfi fikirdədir və 5 nəfər hələ

də məqsədini müəyyənləşdirməyib. Ümumi iştirakçıların 17 nəfəri, yəni respondentlərin təxminən 16%-i isə ümumiyyətlə müəllim ixtisasına qəbul olmaq haqqında düşünməyənlər olub və onların 15-i (88.2%) müəllim olmaq haqqında düşünmür. Bu da bizə deməyə əsas verir ki, tələbələrin ixtisası öz istəyi ilə seçib-seçməməsindən asılı olaraq gələcək iş həyatına münasibəti dəyişə bilər.

**İxtisas əhəmiyyəti.** Təhsilalanların oxuduqları ixtisasın perspektivi ilə bağlı fikirləri toplanıb (Cədvəl 1):

| **İxtisasın əhəmiyyəti** | **Say** | **Faizlə** |
|---|---|---|
| 1 | 3 | 2.8% |
| 2 | 6 | 5.6% |
| 3 | 10 | 9.4% |
| 4 | 31 | 29.2% |
| 5 | 56 | 52.8% |

**Cədvəl 1.** İxtisasın gələcək üçün əhəmiyyətlilik səviyyəsi (ən yuxarı 5, ən aşağı 1)

Cədvəldən göründüyü kimi, tələbələrin ümumilikdə 82%-i müəllimlik ixtisası ilə bağlı müsbət fikirdədir və əhəmiyyətlilik səviyyəsini 4 və 5 balla qiymətləndirirlər. Respondentlərin 8.4%-i isə ən aşağı ballarla (1 və 2 bal) öz peşəsini dəyərləndirib. İxtisas haqqında mənfi fikirdə olan iştirakçılar texnologiya, süni intellektin getdikcə inkişafı ilə əlaqədar gələcəkdə müəllimlərə ehtiyac olmayacağı fikrindədirlər. Bu gənclərin müəllimlik haqqında qənaətbəxş olmamalarının səbəblərindən biri də onların müəllimləri sadəcə “bilik bazası” kimi görmələridir.

**Karyera.** Bu kateqoriyada olan suallar vasitəsilə biz tələbələrin gələcəkdə bu istiqamətdə nə qədər uğurlu olub-olmayacaqları ilə bağlı təhlillər aparmışıq. Belə ki, ixtisasında uğur qazanacağına əmin olan tələbələr üstünlük təşkil edir və onların sayı 86-dır (80%). İştirakçıların 20%-i isə bu fikirlə o qədər də razı deyil. Gələcəkdə özünü necə iş yerlərində görməyi planladıqlarını öyrənərək onları 4 kateqoriyaya ayırmışıq: *1)ixtisas üzrə işləmək istəməyənlər, 2) ixtisasa uyğun dövlət təhsil müəssisələrində işləmək istəyənlər, 3)ixtisasına uyğun özəl sektorda işləmək istəyənlər, 4)ümumiyyətlə işləmək istəməyənlər* (Cədvəl 2).

| ***iş istiqaməti*** | ***say*** | ***faiz*** |
|---|---|---|
| özəl sektor | 51 | 48.1% |
| dövlət müəssisəsi | 34 | 32% |
| öz ixtisası üzrə işləmək istəmir | 20 | 18.8% |
| işləmək istəmir | 1 | 0.9% |

**Cədvəl 2.** Tələbələrin planları

Cədvələ əsasən respondentlərin əksəriyyəti (48.1%) gələcəkdə özəl kurs, məktəb, tədris mərkəzlərində işləməyi planlaşdırır. Onların 60.7%-i (31 nəfər) bu ixtisası özü seçənlərdir, digər 20 nəfər(39.2%) isə ixtisasa təsadüfən və ya başqalarının təsiri ilə qəbul olanlardır. Dövlət təhsil müəssisələrində işləmək istəyənlərin sayı özəllə müqayisədə daha azdır (32%). Bu kateqoriyadan olan tələbələrin 73.5%-i (25 nəfər) oxuduğu ixtisası öz istəyi ilə seçib. Ümumilikdə iştirakçıların 18.8%-i (20 nəfər) öz ixtisası istiqamətində karyera qurmağı planlaşdırmır (Cədvəl 2). Maraqlı məqamlardan biri də budur ki, ixtisasını özü seçməyən tələbələr ya həmin sahə üzrə işləmək istəmir, ya da yalnız özəl sektorda karyera qurmağı düşünür (cəmi bir nəfər dövlət məktəbində işləmək istəyir).

Bununla bərabər sorğu iştirakçılarının işə qəbul imtahanlarına olan münasibətlərin öyrənilmiş və 66.9%-nin (71 nəfər) bu barədə müsbət fikirdə olduqları ortaya çıxmışdır. Respondentlərin yalnız 28.3%-i (30 nəfər) işə qəbul imtahanlarının əleyhinədir.

**Təhsilin keyfiyyəti.** Tələbələrin karyera xəyalları, ixtisasla bağlı motivasiyasına təsir edən amillərdən birinin məhz ali təhsilin keyfiyyəti və müəllimlərin səriştələri olduğunu düşünürük. Sorğuda bu fərziyyəmizin nə qədər doğru olduğunu anlamaq üçün əldə olunan müəyyən məlumatları əlaqəli təhlil etməyə çalışdıq.

İşə qəbul üçün universitetlərdə qazanılan biliklərin kifayət edib-etmədiyini müəyyən edərək tələbələrin 77.3%-nin mənfi fikirdə olduğunu öyrəndik. Respondentlərin 82-si bunun üçün əlavə material və hazırlıqlara ehtiyac olduğunu düşünür. Ümumi tələbələrin yalnız 9.4%-i (10 nəfər) universitetdə öyrədilənlərin kifayət olduğunu hesab edir və 13.2% (14 nəfər) isə bu mövzu ilə bağlı ümumiyyətlə məlumatlı deyil.

Tələbələrin 66%-i öyrəndikləri biliklərin tətbiqə yararlı olduğunu düşünsələr də, 33.9-i bununla həmfikir deyil. İşə qəbul və biliklərin yararlığı ilə bağlı verilən cavablar arasındakı ziddiyyətlər onu deməyə əsas verir ki, işə qəbul imtahanlarının tələbləri və ali təhsil müəssisələrinin tələbələrə öyrətdikləri biliklər arasında uyğunsuzluq mövcuddur. Bu da onu göstərir ki, universitet proqramları və imtahan tələblərinin qarşılıqlı araşdırılması gələcəkdə tədqiq edilməli əsas mövzulardandır.

Müəllimlərin dərs keyfiyyəti və tədris bacarıqlarının tələbə motivasiyasına təsiri də qaçılmazdır. Belə ki, respondentlərin 13.2% (14 nəfər) müəllimlərin müasir yanaşma və metodlardan istifadə etmədiyini düşünür. Onların 12-si (85.7%) buna görə də əldə edilən bilikləri tətbiqə ümumiyyətlə yararsız hesab edir. 42.4% tələbə isə müəllimlərin yeni metodlardan tam peşəkarlıqla istifadə etmədiyi qənaətindədir. 44.3% respondent isə müəllimlərin keyfiyyəti barəsində yüksək fikirdədirlər.

Müəllimlərin rəqəmsal bacarıqları ilə bağlı da fikir ayrılıqları mövcuddur. Burada təhsilverənlərin bacarıqları ilə bərabər təhsil müəssisələrinin imkanları ilə də tanış olmuş oluruq (Qrafik 2).




**Qrafik 2.** Müəllimlərin rəqəmsal bacarıqlarından məmnunluq səviyyəsi(faizlə)

Diqqət çəkən məqamlardan biri də ali təhsil müəssislərinin cari imkanları ilə bağlıdır. Belə ki, tələbələrin 37.7%-i (40 nəfər) universitetdə müasir rəqəmsal texnologiyaların olmadığı və ya işləmədiyi qənaətindədir. 18.8% (20 nəfər) respondent isə müəllimlərin mövcud avadanlıqlardan peşəkar istifadə etmədiyi fikrindədir. Qeyd edək ki, bu mövzuda narazı tələbələr müəllimləri metodik cəhətdən də peşəkar hesab etmir və ümumilikdə onların 85%-ni təşkil edir. 43.3% (46 nəfər) bu fikrin əksinə müəllimlərin səriştə və bacarıqlarından razılığını bildirmişdir.

Dərs formatı ilə bağlı verdiyimiz sualdan aydın olur ki, müəllimlərin əksəriyyəti dərsləri interaktiv formada həyata keçirməyə çalışır və tələbələr mövcud problemlərlə bağlı sərbəst fikirlərini səsləndirə bilirlər (51 nəfər). Mühazirə və seminar formatında həyata keçən dərslər isə ikinci ən çox verilən cavablardandır (44 nəfər). 37 respondent müəllimlərin tələbələrin tədqiqat, araşdırmalara cəlb etdiyini və onlara real

nümunələr üzərindən problemlərə yanaşmağa çağırdığını deyir. Çox az tələbə (16 nəfər) müəllimlərin real konteksti müşahidə etməyə, simulyasiyalar təşkil edərək öz biliklərini tətbiq etməyə şərait yaratdığı fikrindədir.

**Problemlər.** Müəllim kimi formalaşmaqda respondentlərin qarşısında yaranan problemləri öyrənmək üçün onlara açıq sual ünvanlanmış və yaxın cavablar 6 kod üzrə toplanmışdır (Cədvəl 3):

| kodlar | n | nümunələr |
|---|---|---|
| **Tədris** | 26 | • Dərslərin ağırlığı bəzi fənlərin mənasızca keçirilməsi.<br>• Universitetdə pedaqogika dərslərinin sıxıcı keçirilməsi.<br>• Tam olaraq ixtisas fənlərinə yetəri önəmin verilməməsi<br>• Universitetimizdəki təchizatların azlığı deyərdim. Çünki biz də gələcəyin müəllimləri olacağıq və İKT bacarıqlarmızı genişləndirməyimiz vacibdir. |
| **Müəllim peşəsinə münasibət** | 7 | • Müəllim peşəsinə göstərilən hörmət və əmək haqqı.<br>• Maaşı azdı, yaxşı müəllim olmaq üçün sərf edilən əziyyət qarşılığında o qədər dəyər verilmir. |
| **Imkanlar/təcrübə** | 15 | • Universitetdə yetərincə təcrübələrin aparılmaması, bəzi cihazların, mikroskop və digər cihazların doğru-düzgün işləməməsi, preparatların lazımınca olmaması.<br>• Maddi problemlərlə qarşılaşıram, hansı ki əlavə kurslara gedib xarici dil öyrənmək və ya ixtisasıma uyğun elmi seminarlarda iştirak etmək istəyirəm. |
| **Şəxsi xüsusiyyətlər** | 6 | • Əsasən özümü ifadə edə bilməmək<br>• Nitqimin istədiyim qədər yaxşı olmaması |
| **İşə qəbul** | 7 | • Çox müəssisədə təcrübə tələb edirlər<br>• Tələbə olaraq işə qəbul olunmamağımız, hər yerdə təcrübə tələb edirlər. Lakin heç yerdə işləməyən biri necə təcrübəli ola bilər?<br>• İşə qəbulun çətinliyi |

**Cədvəl 3.** Müəllim kimi formalaşmaqda üzə çıxan problemlər

Cədvəldən göründüyü kimi tələbələrin motivasiyasının aşağı olmasının əsas səbəbi ali təhsil müəssisələrində aparılan tədris prosesində mövcud çatışmazlıqlardır. Tələbələrin əksəriyyəti ixtisas fənlərinin keyfiyyətindən narazıdır və qeyri-ixtisas fənlərin ağırlığından narazıdır. Eləcə də, universitetlərin müasir rəqəmsal texnologiyalarla təchiz edilməməsi dərs prosesinin keyfiyyətinə təsir edən amillərdəndir.

Tələbələrin həvəsdən düşməsinə təsir edən digər ən çox səsləndirilən səbəb isə təcrübə və universitetin digər imkanları ilə bağlıdır. Tələbələr pedaqoji təcrübə müddətinin kifayət etmədiyi və əldə olunan nəzəri biliklərin tətbiq etmək üçün uyğun şəraitin olmadığı fikrindədir.

Respondentlərin peşə motivasiyasını aşağı salan digər iki səbəb isə müəllimlik sənətinə olan mənfi münasibət, stereotiplər və işə qəbul prosesinin çətinliyidir. İştirakçılar müəllimlərin işinə dəyər verilmədiyini və əmək haqqının işin çətinliyi ilə müqayisədə aşağı olduğunu bildirir. Tələbələri narahat edən digər məqam isə işə qəbul prosesinin mürəkkəb və ağır olması, eləcə də işə götürənlərin qarşı tərəfə qoyduğu gözləntilərdir. Bir çox iş yerlərinin tələbələrdən təcrübə tələb etməsi onların həvəsdən düşməsinə səbəb olur.

Tələbələrin müəllimlik kimi formalaşmasında üzə çıxan problemlərdən ən sonuncusu onların çatışmayan şəxsi keyfiyyətləridir. Belə ki, tələbələrin bir qisminin özgüvənin aşağı olmasına səbəb onların səbirsiz olması, özünü və fikirlərini tam, dolğun şəkildə ifadə edə bilməməsidir.

**Nəticə.** 106 nəfər bakalavr tələbəsi ilə aparılan sorğuda respondentlərin pedaqoji ixtisaslara yönəlməsinin səbəbləri ilə bərabər müəllim kimi formalaşmaqda qarşılarına çıxacaq problemlər araşdırılıb. Bu maneələrin tələbələrin peşə motivasiyasına, eləcə də gələcək karyera ilə bağlı planlarına, proqnozlarına təsir etdiyini müəyyən etmiş olduq.

Müəllimlik ixtisasını istəksiz şəkildə oxumalı olan tələbələrin əksəriyyəti həmin ixtisaslar üzrə karyera qurmaq istəmir. Səhv ixtisas seçimlərinin edilməsində sosial amillərin və qəbul imtahanlarının nəticələrinin rolu var.

Respondentlər ixtisaslarının gələcək əhəmiyyətliliyi barəsində müsbət fikirdədirlər. İxtisasın sevməyərək seçilməsi müəllimliyin tələbələr tərəfindən perspektivsiz peşə kimi qəbul etməsinə səbəb deyil.

Pedaqoji istiqamətdə karyera qurmaq istəyənlərin böyük əksəriyyəti özəl sektorlarda iş qurmaq haqqında düşünürlər. Respondentlərin böyük qismi dövlət imtahanlarının lehinə olduğundan özəl sektorda iş qurmaq istəyən tələbələrin bu seçimi etmə səbəblərinin daha dərindən tədqiq edilməsini zəruri edir.

Tədrisin keyfiyyəti və ali təhsil müəssisəsinin infrastrukturu, müəllimlərin dərsə hazırlıq səviyyəsi, metodikası və rəqəmsal bacarıqları tələbələrin peşə motivasiyasına təsir edən əsas amillərdir. Həmçinin pedaqoji təcrübə imkanlarının qısa müddətli və məhdud imkanların olması respondentləri həvəsdən salan ikinci əsas səbəbdir. Mövcud stereotip, müəllim peşəsinə yanaşma, işə qəbul üçün qoyulan ağır və qeyri-mümkün tələblər də tələbləri gələcəkləri barədə qayğılandırır.

**Problemin aktuallığı.** Motivasiya mövzusu həyatımızın hər sahəsini əhatə etdiyi kimi təhsil sistemində də bu mövzuya geniş yer verilir. Tələbələrin müxtəlif problemlərlə və diqqəti yayındıran amillərlə üzləşdiyi bugünkü dinamik təhsil mənzərəsində motivasiyanın gücləndirilməsi və davam etdirilməsi həmişəkindən daha vacibdir. Şagird və ya tələbənin nailiyyət qazanmasında motivasiyanın önəmli yeri vardır. Tədqiqatlar motivasiya və nailiyyət arasında güclü müsbət əlaqə olduğunu göstərir. Bu baxımdan gələcəyin müəllim namizədlərinin motivasiya səviyyələrinin nədən asılı olduğunu və onlara nəyin təsir etdiyini araşdırmaq və bu istiqamətdə tədqiqatlar aparmaq təhsilin gələcəyi və keyfiyyəti üçün çox zəruridir.

**Problemin elmi yeniliyi.** Müəllim hazırlığı proqramları ənənəvi olaraq pedaqoji texnikalara və fənn üzrə təcrübəyə diqqət yetirsə də, bu kontekstdə motivasiyanın əhəmiyyəti çox vaxt lazımi səviyyədə qiymətləndirilmir. Ölkəmizdə də bu sahədə tədqiqatlar azlıq təşkil edir. Məqalədə ilk dəfə olaraq müəllim namizədlərinin motivasiyası bir neçə aspektdən araşdırılaraq tədqiq edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə verilən məlumatlar, motivasiyanın tələbələrin ixtisas seçiminə, peşə həyatına, ümumilikdə təhsil sisteminə təsirini bir daha əsaslandıracaq, bu sahədə aparılan araşdırmalara töhfə verəcəkdir. Müəllimlik peşəsində təhsil alan tələbələrin motivasiyasını başa düşməyin vacibliyi fərdləri təhsildə karyera qurmağa sövq edən amilləri dərk etməkdən ibarətdir. Təhsil müəssisələri, siyasətçilər və bütövlükdə cəmiyyət bu motivlər haqqında fikir əldə etməklə, pedaqoq olmaq istəyənləri daha yaxşı dəstəkləyə və tədris və öyrənmə keyfiyyətini artıra bilər. Həmçinin məqalənin məzmunu və əsas nəticələrindən ali məktəbdə pedaqogikadan mühazirə və seminar məşğələlərində, kurs, buraxılış işləri, referat və müstəqil işlərin yazılmasında istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. ACAT, M. B., & Yenilmez, K. (2004). Eğitim fakültesi öğrencilerinin öğretmenlik mesleğine ilişkin motivasyon düzeyleri. *Manas Üniversitesi Sosyal Bilimler Dergisi*, *6* (12), 125-139.
2. Akbaba, S. (2006). Eğitimde motivasyon. *Atatürk Üniversitesi Kazım Karabekir Eğitim Fakültesi Dergisi*, (13),s. 343-361.
3. CEP- Center on Education Policy. (2017). What is motivation and why does it matter? New York: Center Education Polisy Publications
4. Dereli, E., & Acat, M. B. (2010). Okul öncesi eğitim öğretmenliği bölümü öğrencilerinin motivasyon kaynakları ve sorunları. *Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi*, (24), s. 173-187.
5. Məmmədova, L. (2023) Tələbələrdə Təlim Motivasiyasının Formalaşmasında Layihə Əsaslı Tədrisin Əhəmiyyəti. //Akademik Tarih ve Düşünce Dergisi, 10 (2), - s. 498-507.
6. Sadıqova, F. (2021) Təhsildə Motivasiya və Özünəinamın Formalaşdırılması. // Azərbaycan məktəbi № 3, - s. 86-94
7. Stirling, D. (2013). Motivation in education. *Aichi Universities English Education Research Journal*, *29*(2013). -72.
8. Taimalu, M., Luik, P., Kantelinen, R., & Kukkonen, J. (2021). Why they choose a teaching career? Factors motivating career choice among estonian and finnish student teachers. *TRAMES: A Journal of the Humanities & Social Sciences*, *25*(1).

**E-mail:**nargizmukhtarli@gmail.com

**Redaksiyaya daxil olub:** 24.06.2024